# Xarici mətbuat Azərbaycana məxsus "Embraer 190" təyyarəsinin qəzaya uğramasını diqqət mərkəzində saxlayır




İtaliya mətbuatı Bakı-Qroznı reysini yerinə yetirən "Azərbaycan Hava Yolları"na məxsus sərnişin təyyarəsinin hansı səbəbdən qəzaya uğramasını diqqət mərkəzində saxlayıb, bununla bağlı mütəmadi olaraq məlumatlar paylaşıb.

AZƏRTAC xəbər verir ki, "Rai", ANSA, "La Repubblica", "Sky TG24", "il Messaggero" və digər nəşrlərdə yayımlanan materiallarda sərnişin təyyarəsinin kənar müdaxilə nəticəsində qəzaya uğradığı qeyd olunub. Vurğulanıb ki, təyyarənin enmə trayektoriyası, onun qalıqlarının vəziyyəti, şahidlərin ifadələri və qəzanın xronoloji ardıcıllığı bunu deməyə əsas verir.

Yazılarda Azərbaycan pilotlarının qəhrəmanlıq nümayiş etdirdikləri və daha çox sayda insanın həlak olmasının qarşısını aldıqları, qəza vəziyyəti zamanı təyyarə bələdçilərinin peşəkar və sayıq davrandıqları qeyd olunub.

Eyni zamanda qəza nəticəsində 38 nəfərin öldüyü, dekabrın 26-da Azərbaycanda matəm günü elan olunduğu diqqətə çatdırılıb.

❖ ❖ ❖




"Azərbaycan Hava Yolları"na (AZAL) məxsus təyyarənin pilotları hava gəmisini təhlükəsiz endirmək üçün sona qədər mübarizə aparıblar. Bu fikir Fransanın "La Voix du Nord" portalındakı xəbərdə yer alıb. Xəbərin müəllifləri azərbaycanlı pilotların yüksək peşəkarlıq nümayiş etdirdiklərini bildiriblər.

Məqalədə qeyd olunub ki, AZAL-ın 8432 saylı reysinin uçuş heyəti həqiqi möcüzə göstərərək hava gəmisindəki sərnişinlərin yarısının həyatını xilas edə biliblər. Hidravlik və naviqasiya sistemlərinin sıradan çıxmasına rəğmən, onlar 2 saat ərzində Xəzər dənizindən keçərək təyyarəni Aktauya çatdıra biliblər. Qəzada həyatlarını itirən gəmi komandiri İqor Kşnyakin, pilot Aleksandr Kalyaninov və stüardessa Hökümə Əliyevanın fədakarlıqları sayəsində faciənin miqyasını kiçiltmək mümkün olub.

Azərbaycan.- 2024.- 29 dekabr (№ 289).- S.7.